**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən 2024-cü il ərzində beynəlxalq əməkdaşlıq sahəsində görülmüş işlər barədə**

# HESABAT

2024-cü il ərzində Əmlak Məsələləri Dövlət Xidmətinin fəaliyyət istiqamətlərinə uyğun olaraq ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi, xarici dövlətlərin aidiyyəti qurumları ilə əməkdaşlıq sənədlərinin razılaşdırılması, beynəlxalq və regional iqtisadi təşkilatlarla əlaqələr, beynəlxalq təcrübənin təşviqi sahəsində müvafiq işlər həyata keçirilmişdir.

11-12 iyul 2024-cü il tarixlərində Azərbaycan Respublikasının Prezidentinin Pakistan İslam Respublikasına dövlət səfəri çərçivəsində “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Pakistan İslam Respublikasının Özəlləşdirmə Nazirliyi arasında dövlət əmlakının özəlləşdirilməsi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu” imzalanmışdır.

MDB üzv dövlətlərinin Geodeziya, xəritəçəkmə, kadastr və Yerin məsafədən zondla tədqiq edilməsi üzrə Dövlətlərarası Şurasının və işçi qruplarının 19 mart 2024-cü il tarixində onlayn formatda keçirilmiş iclasında Xidmət əməkdaşlarının iştirakı təşkil edilmişdir.

Azərbaycan-İtaliya ikitərəfli iqtisadi əməkdaşlığı çərçivəsində ötən dövrdə həyata keçirilmiş işlərə, müzakirəsi aparıla biləcək sənədlərə və digər zəruri məsələlərə dair məlumatların təqdim olunması barədə müvafiq təkliflər aidiyyəti üzrə təqdim edilmişdir.

Azərbaycan və Yaponiya arasında müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi məqsədilə ölkəmizin Yaponiyadakı Səfirliyi tərəfindən hazırlanmış 2024-2026-cı illər üzrə Yol Xəritəsi layihəsinə dair təkliflər təqdim edilmişdir:

Azərbaycan-Türkmənistan iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın 7-ci iclas Protokolunun, Azərbaycan-Rusiya Federasiyası iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının 21-ci iclas protokolunun, Azərbaycan-İran Dövlət Komissiyasının 15-ci iclasının Anlaşma Memorandumunun, Azərbaycan-Gürcüstan Hökumətlərarası Komissiyasının 9-cu iclas protokolunun, Azərbaycan-Qazaxıstan Hökumətlərarası Komissiyasının 20-ci iclas Protokolunun və Azərbaycan-Çin Hökumətlərarası Komissiyasının 9-cu iclas protokolunun aidiyyəti bəndlərinin icrası ilə bağlı məlumatlar hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

Beynəlxalq və regional təşkilatlarla, eləcə də xarici ölkələrin aidiyyəti dövlət orqanları və özəl şirkətləri ilə əlaqələrin genişləndirilməsi məqsədilə Əmlak Məsələləri Dövlət Xidmətinin Beynəlxalq Mərzçəkənlər Federasiyasına üzv olmağı ilə bağlı XİN vasitəsilə qarşı tərəfə məktub ünvanlanmışdır.

7-8 may 2024-cü il tarixlərində Ankara şəhərində keçirilmiş Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 11-ci iclas Protokolunun müvafiq bəndlərinin icrası məqsədilə Türkiyə Respublikası Ətraf Mühit və Şəhərsalma Nazirliyinin Daşınmaz Əmlakın Qeydiyyatı və Kadastrı Baş Direktorluğuna məktub hazırlanmış və qarşı tərəfə çatdırılması üçün Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə təqdim edilmişdir.

"Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında əməkdaşlıq əlaqələrinin gücləndirilməsinə dair Tədbirlər Planı" ilə bağlı Fəaliyyət Planının icrasının təmin edilməsinə dair xidməti məruzəyə İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətində aidiyyəti üzrə baxılmışdır. Sözügedən Fəaliyyət Planının 4-cü bəndi üzrə nəzərdə tutulmuş tapşırıq çərçivəsində, bəzi dövlət müəssisələrinin özəlləşdirilməsi prosesinə Çin investorlarının cəlb edilməsi ilə əlaqədar ilkin təhlillərin aparıldığı bildirilmişdir.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti ilə Çin Xalq Respublikasının Dövlət Şurasının Dövlət Aktivlərinə Nəzarət və İdarəetmə Komissiyası (SASAC) arasında daşınmaz əmlakın dövlət kadastrı və reyestri, eləcə də dövlət əmlakının idarə edilməsi sahəsində əməkdaşlığın qurulması barədə məktub hazırlanmış və qarşı tərəfə çatdırılması üçün Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə təqdim edilmişdir.

Malayziyanın müvafiq qurumu ilə əməkdaşlıq imkanlarının genişləndirilməsi məqsədilə daşınmaz əmlakın dövlət kadastrı və reyestri, 3D kadastrı təcrübəsi, kartoqrafiya, geodeziya fəaliyyəti istiqamətlərində əməkdaşlığa və təcrübələrini öyrənməyə maraqlı olduğumuz sahələr barədə məlumatlar aidiyyəti üzrə təqdim edilmişdir.

ƏMDX ilə Almaniya Federativ Respublikasının Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) arasında "Dövlət əmlakının idarə olunması və özəlləşdirilməsinə məsləhət xidməti" texniki yardım layihəsi ilə bağlı qarşı tərəfdən daxil olan e-mailə əsasən 2024-cü ildə davam etdirilməsi niyyəti ifadə edilmişdir. Bu xüsusda, işçi qaydada aparılan danışıqlar əsasında əməkdaşlığın cari il üzrə prioritetinin Almaniyada özəlləşdirmənin çərçivə şərtləri (özəlləşdirmənin prosedurları, mexanizmləri və modelləri) üzrə təcrübə mübadiləsi, Federal Daşınmaz Əmlak Agentliyinin (BImA) vəzifələri və institusional strukturu üzrə ekspert mübadiləsi, Torpaq idarəçiliyi üzrə təcrübə mübadiləsi (idarəetmə, vergi bazası, ictimai istifadə sahələrində şəxsi iştirak), Dövlət-özəl tərəfdaşlığın təşviqi və müxtəlif PPP modellərinin tətbiqində ƏMDX-yə dəstək üçün təlimatlar kimi mövzular əsasında qurulması barədə razılıq əldə edilmişdir.

Türk Dövlətləri Təşkilatının (TDT) üzv dövlətləri və müşahidəçi üzvlərinin hərbi və mülki xəritəçəkmə institutları arasında əməkdaşlığı təmin etmək məqsədilə TDT çərçivəsində Xəritəçəkmə üzrə İşçi Qrupunun yaradılması ilə bağlı məktuba münasibət bildirilmişdir.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti ilə Qətər Dövlətinin, Səudiyyə Ərəbistanı Krallığının, Oman Sultanlığının, Misir Ərəb Respublikasının, Koreya Respublikasının, Çin Xalq Respublikasının, İndoneziya Respublikasının, Almaniya Federativ Respublikasının, İspaniya Krallığının, Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının, İtaliya Respublikasının, Avstriya Respublikasının, Belçika Krallığının, Macarıstanın, Yaponiyanın və Malayziyanın müvafiq qurumları, həmçinin "EuroGeographics" beynəlxalq təşkilatı ilə əməkdaşlığın həyata keçirilməsi ilə bağlı XİN-ə müraciət ünvanlanmışdır.

Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzvolma prosesi çərçivəsində ÜTT Katibliyində yaradılmış İşçi Qrupun hesabat layihəsinə münasibət bildirilmiş və məlumatlar hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

2024-cü ilin 24-27 sentyabr tarixlərində Azərbaycan Respublikasının Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzvolma prosesi çərçivəsində ÜTT Katibliyində yaradılmış İşçi Qrupun iclasında Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Aparat rəhbəri iştirak etmişdir.

5-8 iyun 2024-cü il tarixlərində Sankt-Peterburq şəhərində keçirilmiş "XXVII Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumu"nda, həmçinin 18-22 iyun 2024-cü il tarixlərində Rusiya Federasiyasının Moskva şəhərində keçirilmiş "Kompetensiyalar 2024. Kadastr qiymətləndirməsi" adlı forumda Əmlak Məsələləri Dövlət Xidmətinin əməkdaşlarının iştirakı təmin edilmişdir.

29-31 may 2024-cü il tarixlərində Asiya İnkişaf Bankının (AİB) "Mərkəzi və Qərbi Asiyada Balanslaşdırılmış və Davamlı Şəhər Əməliyyatlarına Dəstək" adlı texnik yardım layihəsi çərçivəsində Şəhərsalma və Arxitektura Dövlət Komitəsi ilə birgə təşkil etdiyi Azərbaycan Milli Şəhər Qiymətləndirilməsi barədə tədbirdə ƏMDX-nin əməkdaşlarının iştirakı təmin edilmişdir. Eyni zamanda, sözügedən layihə çərçivəsində Azərbaycanda səfərdə olan Ölkə üzrə Məsləhətləşmə Missiyası ilə 27 may 2024-cü il tarixində ƏMDX-nin inzibati binasında Xidmətin Aparat rəhbərinin rəhbərliyi ilə görüş təşkil edilmişdir.

Cari ilin 15-18 oktyabr tarixlərində Beynəlxalq və regional təşkilatlarla əlaqələrinin genişləndirilməsi habelə daşınmaz əmlakın mövcud kadastr və reyestri modelinin modernləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması ilə əlaqədar inkişaf etmiş ölkələrin və beynəlxalq təcrübələrinin öyrənilməsi məqsədilə ƏMDX-nin əməkdaşları Gürcüstanın Tbilisi şəhərinə səfər etmişdir.

Notariat ofisləri və daşınmaz əmlak üzərində hüquqların qeydiyyatını aparan qurum arasında qarşılıqlı əlaqənin təşkili sahəsində Azərbaycan Respublikasının təcrübəsi ilə bağlı məlumatlar Belarus Respublikasının aidiyyəti qurumuna göndərilmişdir.